# 2018-ci ilin mədəni xronologiyası

## Musiqi festivalları, yubileylər, təltiflər, itkilər...




**Son günlərini yaşadığımız 2018-ci il Azərbaycan mədəniyyəti və incəsənəti, bütövlükdə sənət aləmi üçün bir sıra əlamətdar günlərlə və hadisələrlə yadda qaldı. Belə ki, qazanclarımızla yanaşı, itkilərimiz də oldu.**

İlk olaraq ondan başlayaq ki, bu il bir neçə mədəniyyət xadiminin dövlət səviyyəsində yubileyləri keçirildi, bir çoxlarına ölkə prezidenti tərəfindən fəxri adlar, orden və medallar təqdim olundu. 2018-ci il Cümhuriyyət İli elan olunduğu üçün 27 may tarixində dövlət başçısı Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı bir qrup mədəniyyət xadiminə fəxri adların verilməsi haqqında sərəncam imzaladı. Həmin sərəncamla 33 nəfərə "Xalq artisti", yeddi nəfərə "Xalq rəssamı", 10 nəfərə "Əməkdar rəssam", bir nəfərə "Əməkdar incəsənət xadimi", 12 nəfərə "Əməkdar mədəniyyət işçisi", həmçinin, 60-a yaxın sənət adamına "Əməkdar artist" fəxri adları verildi. Milli Teatr günündə, Gənc Tamaşaçılar Teatrının 90 illik yubiley tədbirində fəxri adların verilməsi davam etdi.

### CÜMHURİYYƏTİN YARANMASININ 100 İLLİYİ

Bu il may ayının 28-də müsəlman Şərqində ilk parlamentli respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi tamam oldu. Bu səbəbdən də 2018-ci il Azərbaycan tarixində xüsusi əhəmiyyətli bir il kimi yadda qaldı və paytaxtın bütün rayonlarında, qəsəbələrində, ali və orta təhsil ocaqlarında, dövlət müəssisələrində müxtəlif adda mədəniyyət tədbirləri, konsert proqramları nümayiş olundu, festivallar, sərgilər keçirildi, çoxsaylı mədəniyyət yönlü layihələr təqdim olundu.

### MUSİQİ FESTİVALLARI

Bu il Bakı üçüncü dəfə "Jara" Beynəlxalq Musiqi Festivalına ev sahibliyi etdi. Bu festival daha səs-küylü, yadda qalan oldu. Festivalın təşkilatçıları Azərbaycanın xalq artisti Emin Ağalarov, Rusiyanın əməkdar artisti Qriqori Leps, "Russkoye radio"nun və "Qızıl qrammofon" mükafatının təsisçisi Sergey Kojevnikov idi. İyulun 26-dan 29-dək "Sea Breeze Resort" istirahət mərkəzində keçirilən festivalda 1200-dən çox musiqiçi, 75 tanınmış ifaçı iştirak etdi.

Üzeyir Hacıbəyliyə həsr olunmuş X Beynəlxalq Musiqi Festivalı 18-26 sentyabr tarixlərində keçirildi. Festival çərçivəsində Rusiya, ABŞ, Türkiyə, İtaliya və Slovakiyadan tanınmış musiqiçilər və kollektivlər - T.Dokşitser adına "New life brass" kvinteti, "Dədə Qorqud" kamera orkestri, Murad Kajlayev, Murad Annamamedov, Sergey Roldugin, Pavel Milyukov, Azər




Dəmirov, Fərhad Aşumov və başqalarının iştirakı ilə 30-a yaxın tədbirlər həyata keçirildi.

Yay aylarında "X Beynəlxalq Qəbələ Musiqi festivalı"na ev sahibliyi etdik. Musiqi bayramına Rusiya, İsrail, ABŞ, İsveçrə, Avstriya, Kuba, Macarıstan, Türkiyə, İspaniya, İtaliya, Gürcüstan kimi ölkələrdən dünya şöhrətli dirijor, ifaçı və kollektivlər, həmçinin Azərbaycanın tanınmış musiqi kollektivləri dəvət olunmuşdu.

Bu il Azərbaycanda ilk dəfə olaraq 27-30 sentyabr tarixlərində keçirilən Nəsimi - şeir, incəsənət və mənəviyyat festivalı Heydər Əliyev Fondunun təşkilatçılığı və Mədəniyyət Nazirliyinin dəstəyi ilə baş tutdu. Nəsiminin fəlsəfi baxışlarını əks etdirən "Simadan - asimana" və "Zərrə mənəm, günəş mənəm "şüarları ilə təşkil olunan festival çərçivəsində Nəsimi şeir məclisi, 14-cü qısametrajlı filmlər marafonu və ədəbi müsabiqə keçirildi.

### İTKİLƏRİMİZ...

Yola salmaqda olduğumuz 2018-ci il ölkəmizdə bir neçə tanınmış sənət adamı dünyasını dəyişdi.

Azərbaycanın əməkdar incəsənət xadimi, bəstəkar Xəyyam Mirzəzadə uzun sürən xəstəlikdən sonra iyul ayında vəfat etdi. Hamımızın yaxşı tanıdığı, Azərbaycanın xalq artisti, məşhur aktrisa Zərnigar Ağakişiyeva da 72 yaşında dünyasını dəyişdi. Azərbaycanın xalq artisti, Səməd Vurğun adına Dövlət Rus Dram Teatrının aktyoru Yuri Baliyev 69 yaşında vəfat etdi. Y.Baliyev bir neçə filmdə də çəkilib. "Ovsunçu", "Babək", "Salandar", "Tehran-43" və s. filmlərdə aktyor maraqlı, yaddaqalan rollar oynayıb. Azərbaycanın əməkdar artisti və əməkdar mədəniyyət işçisi Həsənağa Sadıqov avqust ayında dünyasını dəyişib. 67 yaşlı sənətkar xərçəng xəstəliyindən əziyyət çəkirdi.

Xalq artisti Fuad Poladov da 2018-ci ildə itirdiyimiz sənət adamları arasındadır. Azərbaycan kino və teatr sahəsində yetərincə sözünü demiş, 50-dən çox tamaşa və filmdə müxtəlif obrazlar yaratmış tanınmış aktyor mayın 5-i haqq dünyasına qovuşdu. Daha sonra xalq artisti Amaliya Pənahovanın dünyasını dəyişməsi xəbəri bizləri çox sarsıtdı. 73 yaşlı tanınmış sənətkar 1964-cü ildən ömrünün sonunadək teatr və kino sahəsində beş yüzdən artıq obraz yaradıb. Onlardan Tomris, Natəvan, Medeya, Burla Xatun, Məhsəti, Larisa, Ofeliya, Linza kimi rolları xatirələrimizdə silinməz izlər buraxıb. Noyabrda ikinci itkimiz isə tanınmış aktyor və müğənni Novruz Novruzlu oldu. Novruz Novruzlu Azərbaycanda mistik musiqi qrupunun professional səviyyədə ilk qurucusudur. O, Akademik Opera və Balet Teatrında işləyirdi. N.Novruzlu "Savalan" qrupunu yaradıb və onun bədii rəhbəri idi.




Tanınmış bəstəkar, əməkdar incəsənət xadimi Tahir Əkbər də bu il haqq dünyasına qovuşdu. Beyin insultundan əziyyət çəkən 72 yaşlı bəstəkar Yasamal qəbiristanlığında dəfn olundu.

Azərbaycanın xalq rəssamı, heykəltəraş Tokay Məmmədov da bu il dünyasını dəyişdi. 91 yaşlı heykəltəraş müalicə aldığı xəstəxanada vəfat edib. Onun anası Zivər Məmmədova Azərbaycanın ilk qadın heykəltəraşı olub.

### NAZİRLİYİN HESABATI

Məlumat üçün bildirək ki, dünən Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında Mədəniyyət Nazirliyi Aparatı işçilərinin və nazirliyin strukturuna daxil olan qurumların rəhbər şəxslərinin iştirakı ilə 2018-ci ilin yekunlarına həsr olunmuş kollegiya iclası keçirilib. İclası mədəniyyət naziri Əbülfəs Qarayev açaraq gündəlikdə duran məsələlərlə bağlı məlumat verib. Kollegiya iclasında geniş hesabat məruzəsi ilə çıxış edən nazir 2018-ci ildə ölkəmizdə keçirilən beynəlxalq tədbirlərdən, mədəniyyətin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsindən, görülən işlərdən, həyata keçirilən layihələrdən, əldə olunan nailiyyətlərdən ətraflı söhbət açıb. 2018-ci ildə Mədəniyyət Nazirliyinin fəaliyyətinin ölkə başçısının tapşırıq və sərəncamlarına uyğun olaraq, eləcə də müvafiq dövlət proqramlarının icrası istiqamətində həyata keçirildiyini qeyd edən Əbülfəs Qarayev vurğulayıb ki, Prezident İlham Əliyevin bu ilin aprelin 20-də imzaladığı "Mədəniyyət və turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Sərəncamla Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi yaradılıb. Bununla əlaqədar qurumun strukturunda bir sıra islahatlar aparılıb. İslahatların əhəmiyyətini yüksək qiymətləndirən nazir qeyd edib ki, struktur islahatlarının reallaşdırılmasında əsas məqsəd ölkəmizdə mədəniyyət siyasətinin daha məqsədyönlü və uğurlu şəkildə həyata keçirilməsidir: "Bu il Azərbaycanın nüfuzlu beynəlxalq tədbirlərə ev sahibliyi edən ölkəyə çevrildiyini bir daha sübut etdi. Nazir mədəniyyətin inkişafı, mədəni irsimizin təbliği ilə bağlı görülən işlər çərçivəsində Heydər Əliyev Fondunun xətti ilə keçirilən tədbirləri xüsusi qeyd edib, həmçinin Fondun təşkilatçılığı və nazirliyin iştirakı ilə bir sıra beynəlxalq festivalların, layihələrin reallaşdırıldığını diqqətə çatdırıb. Bildirib ki, Bakı şəhərində 2009-cu ilin oktyabr ayında İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransında Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunmasına dair qərar qəbul edilmişdi. Bu il Naxçıvanda bununla bağlı bir sıra silsilə tədbirlər təşkil edilib".

Nazir jurnalistlərin suallarını cavablandırarkən isə gələn il İrəvan Dövlət Azərbaycan Dram Teatrının yeni binasının tə-mirinə başlanılacağını və prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramı ölkənin teatr həyatının yeni mərhələyə qədəm qoymasına şərait yaradacağını vurğulayıb: "Azərbaycanda bütün teatr məkanları müasirləşdirilir, dəyişdirilir, yeni avadanlıqla təchiz edilir. Bir neçə böyük mədəniyyət müəssisələrinin əsaslı təmir və bərpası üçün layihələr hazırlanıb. Opera və Balet Teatrının yenidən qurulması və bərpasının layihəsi artıq hazırdır. Eyni zamanda, düşünürük ki, Bakı Dövlət Sirkinin yerinin dəyişdirilməsinin vaxtı çatıb".

Kollegiya iclasında 2018-ci ilin yekunlarına dair hesabat qəbul edilib. Həmçinin Mədəniyyət Nazirliyinin 2019-cu ilin birinci yarımillik iş planı təsdiq olunub.

**Xəyalə Rəis**